# Balıqqulağı



Əziz xatirədir ötən günlərdən,
Yadıma o vaxtlar, o çağlar düşür...
Onu hər görəndə, oxşayanda mən
Xəyalım keçmişlə yenə görüşür.

Düşür xatirimə Xəzər dənizi,
Çiçəkli, al-əlvan Bakı şəhəri.
Orda insanlar da sulartək təmiz,
Sahildə qarşılar gələn səhəri.

Durub bir küncündə yazı masamın,
Boylanır xoş günlər nişanəsitək.
Həsrətlə çağlayır damarda qanım,
Döyünür sinəmdə ürək də bərk-bərk.

Mən onu tapmışdım qumlu sahildən,
Dalğalar kənara atmışdı onu.
Elə o saatdan, elə o gündən
Dənizli ömrünün bitmişdir sonu.

Dənizdə doğulub balıqqulağı,
Onunla bağlıdır eşqi, həvəsi.
Qırçın ləpələrin dinsə dodağı,
Tutsan qulağına, gələcək səsi.

***Seyran CAVADOV***